


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 138 (24.275)

*3 avqust 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


# Azərbaycan Prezidenti İlham Əliyev “Euronews” televiziyasına müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Şuşada “Euronews” televiziyasına müsahibə verib. Müsahibə avqustun 1-də “Euronews”da yayımlanıb. AZƏRTAC müsahibənin geniş variantını təqdim edir.

**Müxbir:** – Cənab Prezident Əliyev, bizi burada qəbul etdiyinizə görə Sizə çox minnətdarıq. Bu bölgə Cənubi Qafqazın yeni tarixində bəzi ən zorakı epizodların cərəyan etdiyi səhnə olub. Bununla belə 2020-ci ildəki sülh razılaşmasından sonra gərginlik hələ də tam aradan qalxmayıb. Daimi düşmənçiliyi Siz nə ilə əlaqələndirirsiniz?

**Prezident İlham Əliyev:** – Demək çətindir. Düşünürdüm ki, İkinci Qarabağ müharibəsindən sonra vəziyyət fərqli olacaq. Biz sülh üçün hazır idik və əslində, bir az gözlədik ki, beynəlxalq iştirakçılar bizə müəyyən yeni təkliflər versinlər. Anladıq ki, bu, bir növ boşluqdur. Heç kəs nə etməyi bilmirdi. 2020-ci il noyabrın 10-da Bəyanatı imzaladığımız zaman vəziyyət, əslində, dayanıqlı sülhü təmin etmirdi. O, sülh razılaşması deyildi, Bəyanat idi. Əslində, Ermənistanın kapitulyasiya aktı idi. Buna görə biz Ermənistanla münaqişənin yekun həll variantını tapmaq məqsədilə müəyyən təşəbbüslərlə çıxış etməyə başladıq və ictimaiyyət qarşısında bunu açıqladıq. Elan etdik ki, sülh sazişi imzalanmalıdır. Sonra yenə boşluq yarandı. Sonra isə biz sülh sazişinin prinsiplərini müəyyən etdik. Onlar ərazi bütövlüyünün, suverenliyin və beynəlxalq sərhədlərin qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası, gücdən istifadə etməmə və ya güclə təhdid etməmə kimi beynəlxalq hüququn tam məlum prinsipləridir. Bu təklifi biz masa üzərinə qoyduq. Biz 30 illik işğaldan əziyyət çəkmiş və ədaləti güc hesabına bərpa etmiş ölkə olaraq yeni sülh prosesinin müəllifi olduq. Deməzdim ki, hər şey çox rəvan gedir. Biz hələ də nikbinik, çünki hazırda biz hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində çox fəal danışıqlar aparırıq.

**Müxbir:** – Elə mən də onu soruşmaq istəyirdim. Sözünüzü kəsdiyimə görə üzr istəyirəm. Siz bu yaxınlarda Brüsseldən qayıtmısınız. Sülh danışıqlarının növbəti raundu keçirildi. Bir çox insan tərəfindən bu danışıqlar Ermənistanla Azərbaycan arasında dayanıqlı sülhə aparan ümid kimi qarşılandı. Ən sonuncu raunddan sonra ümidli olmaq bizim tərəfdən düzgün olardımı?

**Prezident İlham Əliyev:** – Bəli, ümidli olmaq düzgün məsələdir. Lakin deməliyəm ki, sülh danışıqları xarici işlər nazirləri tərəfindən aparılır. Brüsseldəki görüşlərimiz Avropa İttifaqı Şurasının Prezidenti tərəfindən təşkil olunur. Əslində, həmin görüşlər bizə çox həssas məsələlərə toxunmaq imkanını verir.

**Müxbir:** – Məsələn.

**Prezident İlham Əliyev:** – Sərhədlərin gələcək parametrləri ilə bağlı məsələ, çünki Ermənistanla Azərbaycan arasında sərhəd müəyyən olunmamışdır. Sovet İttifaqının süqutu ərəfəsində biz həmin təcavüzlə üzləşdik. Onda sərhəd necə olacaq? Yerlərdə real vəziyyət necə olacaq? Kommunikasiyalarla bağlı vəziyyət necə olacaq? Çünki İkinci Qarabağ müharibəsi nəticəsində Ermənistanın imzaladığı sənəddə onun öhdəliyi var ki, bizim Naxçıvan kimi eksklavımıza çıxışımız olsun. Lakin bu, hələ də baş vermir. Beləliklə, sülh sazişinin əsas bəndləri nazirlər tərəfindən tərtib edilir. Bizim görüş isə hesab edirəm ki, yaxşı mühit yaradır. Lakin əgər biz Ermənistan tərəfindən konstruktiv yanaşma görsək və ən vacibi isə əgər onlar ərazi bütövlüyümüzü mübahisələndirən bütün iddialarını kənara qoysalar, onda biz təzliklə sülh variantını tapa bilərik. Bəlkə, ilin sonunadək.

**Müxbir:** – Danışıqlar haqqında sonra daha çox söhbət edəcəyik. Lakin mənim üçün soruşmaq maraqlıdır ki, vəziyyəti nizamlamağa cəhd edən çox beynəlxalq iştirakçı olub. Avropa İttifaqı danışıqlar masasına nəyi gətirir?

**Prezident İlham Əliyev:** – Əslində,



1992-ci ildən etibarən, hələ işğal dövründə danışıqlar apardığımız zaman Avropa İttifaqı vasitəçilik prosesinin bir hissəsi olmayıb. Bu, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsüdür. O bizi dəvət etdi və biz dəvəti qəbul etdik. Çünki düşünürük ki, Azərbaycan ilə Avropa İttifaqının, eləcə də onunla Ermənistanın əməkdaşlıq səviyyəsini nəzərə alsaq Avropa İttifaqının fəal olması təbiidir. Xüsusən də İkinci Qarabağ müharibəsindən sonra Minsk qrupu, əslində, fəaliyyət göstərmirdi və indi də göstərmir. Beləliklə, müəyyən beynəlxalq qurum olmalı idi. Düşündüm ki, Avropa İttifaqı ən yaxşı vasitəçi ola bilər, çünki bizim onunla münasibətlərimiz qarşılıqlı hörmətə, etimada və maraqlara söykənir. Bir sözlə, həmin təşəbbüs hazırda çox fəal dialoq formatına çevrilir, çünki biz təkcə Brüsseldə deyil, həmçinin Avropa Siyasi Birliyinin tədbiri çərçivəsində də görüşürük. Sonuncu dəfə görüş Kişineuda baş tutdu. Bunu vacib hesab edirəm, çünki vəziyyətin durğun olmasına imkan vermirik, çünki durğunluq yaranarsa, yenidən bir növ fasiləyə keçərsə, onda biz hər hansı təhlükəli ssenaridən sığortalana bilmərik.

**Müxbir:** – Sizin fikrinizcə, Qərbin, yəni Avropa İttifaqının və həmçinin Birləşmiş Ştatların artan vasitəçiliyi bu regionda daha ənənəvi gücdə – Rusiyada qıcıq yarada bilərmi? Rusiyanın Ukrayna ilə məşğul olması faktı Azərbaycan ilə Ermənistanın ümumi razılığa gəlməsi üçün müəyyən imkan yaradırmı?

**Prezident İlham Əliyev:** – Rusiya atəşkəs sazişinin, yəni 2020-ci il 10 noyabr tarixli Bəyanatın vasitəçisi olub. Bu, nə Birləşmiş Ştatlar, nə də ki, Avropa İttifaqı idi. Ermənistanın baş naziri ilə ilk görüşlərim Rusiya tərəfindən Rusiyada təşkil olunmuşdur. Rusiya-Ukrayna müharibəsindən sonra vəziyyət dəyişdi və biz gördük ki, Birləşmiş Ştatlar və Avropa daha fəal oldular. Əslində, prosesin kimin tərəfindən aparılacağı və ya prosesi kimin müəyyən dərəcədə inhisara götürəcəyi bizim üçün böyük fərq etmir. Nəticəyə gəlmək vacibdir. Sülh sazişi ilə nəticələnəcək təşəbbüsü irəli sürən hər hansı tərəfi biz dəstəkləyəcəyik. Yeri gəlmişkən, xarici işlər nazirləri arasında Vaşinqtonda danışıqlar aparılıb. Hazırda biz bu ayın sonunda danışıqların raundunu Rusiyada keçirmək barədə Rusiyadan dəvət aldıq və bununla razılaşdıq. Beləliklə, əgər hər hansı digər məkan olarsa, əlbəttə ki, biz razılaşacağıq, çünki bizim üçün razılığa gəlmək və nəticə əldə etmək vacibdir. Əlbəttə, müəyyən siyasi rəqabəti, bəzi iştirakçıların daha fəal olmaq cəhdlərini anlayırıq, lakin biz bunu yalnız alqışlaya bilərik. Əgər sağlam rəqabət olarsa, onun yalnız yaxşı nəticələri olacaq.

**Müxbir:** – Rusiya ilə uzun tarixi və əhatəli münasibətlərinizin olduğunu anlayıram. Sizin fikrinizcə, Rusiyanın hazırda bölgədəki təsiri necədir?

**Prezident İlham Əliyev:** – Bilirsiniz, region haqqında demək mənim üçün çətindir, çünki Cənubi Qafqaz bölgəsi üç ölkədən ibarətdir. Biz Rusiyanın Cənubi Qafqazdakı qonşuları-mızla qarşılıqlı əlaqələrini, sadəcə, müşahidə edə bilərik. Azərbaycana gəldikdə isə çox şey dəyişməyib, çünki bizim Rusiya ilə münasibətlərimiz artıq tarazlaşdırılıb. Onlar bir-birimizin milli maraqlarının və əlbəttə ki, ərazi bütövlüyünün və suverenliyin tanınmasına əsaslanır. Rusiya Azərbaycanın qonşusu və tərəfdaşıdır. Bizim nəzərəçarpan ticari dövriyyəmiz, daşımalar infrastrukturuna aid bir çox layihələrimiz var. Bu, xüsusən də indiki dövrə aiddir. Layihələr enerjinin inkişafına aiddir. Əlbəttə ki, mədəniyyət sahəsi də çox vacibdir.

**Müxbir:** – Hazırda Siz məhz enerji sektorunda Qərblə bir çox razılaşmalar əldə etmisiniz. Elədirmi?

**Prezident İlham Əliyev:** – Bəli, Qərblə var. Lakin bu, uzun müddət əvvəl əldə edilib və o vaxt biz Bakıdan İtaliyaya vahid boru kəməri sistemini qurmaq təşəbbüsünü irəli sürdük. O, mərhələli şəkildə icra olundu və onun yekun mərhələsi iki ildən çox əvvəl icra olunmuşdur. Artıq iki ildən çoxdur ki, Azərbaycan Avropanın mühüm qaz təchizatçısına çevrilib. Əlbəttə, Rusiyaya qarşı sanksiyalara bağlı vəziyyət yeni ölçü yaradıb, çünki hazırda enerji sərvətlərimiz heç zaman olmadığı kimi zəruridir. Lakin istənilən addıma gəldikdə, biz onu bir çox il əvvəl imzalanmış müqavilələrimiz və planlarımız əsasında atırıq. Düzdür, hazırda Azərbaycandan əlavə qaz almaq üçün müraciət edən ölkələrin sayı daha çoxdur. Bunu etməyə hazırıq və artıq başlamışıq. Ötən il daha çox ölkə qazımızı almağa başladı. Bu, cari ildə də davam edəcək. Lakin yenə də Rusiya ilə münasibətlərimiz nöqteyi-nəzərindən, Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra çox şey dəyişməyib.

**Müxbir:** – Burada olan vəziyyət haqqında danışaq. Beynəlxalq Ədalət Məhkəməsi, Avropa İnsan Hüquqları Məhkəməsi, ABŞ və Avropa İttifaqı hamısı Laçın dəhlizinin bağlı qaldığı təqdirdə, əhalinin potensial qaydada girova düşmək təhlükəsini qeyd edərək, həmin dəhlizdə hərəkət azadlığına dair zəmanətləri tələb ediblər. Hazırda Laçın dəhlizində baş verənlər haqqında nə deyə bilərsiniz?

**Prezident İlham Əliyev:** – İkinci Qarabağ müharibəsinin bitməsindən, təxminən, iki il sonra Laçın dəhlizi adlandırılan yol işğal vaxtında işləyən qaydada fəaliyyətini davam etdirmişdir. Bir fərq var idi. O, rus sülhməramlılarının nəzarəti altında idi və bu, üçtərəfli Bəyanatın bir hissəsi idi. Fəaliyyətdə dayanma yox idi. Bizim tərəfimizdən müdaxilə etmək addımı da yox idi. Bununla belə həmin yerdəki vəziyyət dəyişməyə başladı. Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələrinin dəhlizə müəyyən dərəcədə nəzarət etmək səylərinin səbəbi Qarabağda ötən il noyabrın əvvəlində təbii sərvətlərin yenidən qeyri-qanuni çıxarılması faktı ilə bağlı idi. Müharibədən sonra o dayandırıldı, çünki qeyri-qanuni idi. Bu sərvət bizə məxsusdur. Bir neçə xarici şirkət qızıl və mis mədənlərimizi qeyri-qanuni olaraq istismar edirdilər. Biz işğal zamanı heç bir şey edə bilmirdik, lakin müharibə başa çatdıqdan sonra aydındır ki, bu fəaliyyət dayandırılmalı idi və dayandırıldı. Sonra isə noyabrda həmin iş yenidən başladı. Vətəndaş cəmiyyətinin nümayəndələri rus sülhməramlılarından xahiş etdilər ki, mədənlərdə nəyin baş verdiyini görmək üçün orada monitorinq keçirsinlər. Biz gördük ki, dəmir və qızıl filizi yük maşınlarında rus sülhməramlılarının müşayiəti ilə Qarabağdan Ermənistana daşınır. Həmin yerə getmək hüququmuz təmin edilmədi və beləcə, vətəndaş cəmiyyətimizin nümayəndələri yola nəzarət etməyə başladılar. Amma yenə də yol bağlı deyildi. O, tam azad idi və hərəkət azad idi.

**Müxbir:** – Yəni o, heç vaxt bağlanmamış, hərəkət heç zaman dayandırılmamışdır?

**Prezident İlham Əliyev:** –Xeyr, xeyr!

**Müxbir:** – Onda fikrinizcə, həmin təsisatlar, xüsusən də Azərbaycandan niyə bunları soruşurlar? Onlar qeyd edirlər ki, Siz həmin sahənin ətraf hissəsinə cavabdehsiniz. Siz hərəkət etmək azadlığını təmin etməlisiniz. Sizcə, nəyə görə onlar Sizi hədəfləyirlər?

**Prezident İlham Əliyev:** – Əslində, Beynəlxalq Ədalət Məhkəməsi bizə öz ismarışını ünvanladı ki, hər hansı hərəkətin pozulmaması üçün biz vətəndaş cəmiyyətinin fəalları ilə danışaq. Biz bunu etdik. Biz Ermənistanla sərhədimizdə sərhəd-keçid məntəqəsini qurduqdan dərhal sonra, – bu bizim legitim hüququmuzdur və heç kəs tərəfindən, o cümlədən Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən mübahisələndirilmir, – biz burada Şuşadakı nümayəndəm vasitəsilə QHT nümayəndələri ilə danışdıq ki, həmin fəaliyyəti dayandırsınlar. Onlar bunu etdilər və getdilər. Hazırda da hərəkət etmək azadlığı bloklanmayıb. Aprelin 23-dən – sərhəd-keçid məntəqəsini qurduğumuz vaxtdan etibarən Qarabağın 2 mindən artıq sakini Ermənistana asan şəkildə gedib-gəlib. İyunun 15-də Ermənistan digər hərbi təxribata əl atdı və bizim sərhədçilərimizdən birini yaraladı.

Yol araşdırmaya görə müvəqqəti olaraq bağlı idi. Sonra yol təkrar açıldı. Qırmızı Xaç Komitəsi dava-dərmanın nəqlini və Ermənistanda müalicəyə ehtiyacı olan xəstələrin təxliyəsini bərpa etdi. Lakin, əfsuslar olsun ki, Qırmızı Xaç Komitəsinin yük maşınlarının yoxlanılması zamanı siqaret, iPhone-lar və benzin kimi məhsulların qaçaqmalçılığa keçirilməsi aşkar olundu. Qırmızı Xaç Komitəsi bunu etiraf etdi və bildirdi ki, onlar buna görə heç bir məsuliyyət daşımırlar, çünki...

**Müxbir:** – Yük maşınları, sadəcə, sürücülər tərəfindən istifadə olunurdu...

**Prezident İlham Əliyev:** – Bəli, lakin bu yük maşınlarının üzərində Qırmızı Xaçın emblemi var idi və sürücülərin uniformaları üzərində də emblemlər var idi. Beləliklə, yol yenidən bu şəkildə bağlanıldı və biz Qırmızı Xaç Komitəsindən buna son qoyulmasını və bizimlə daha konstruktiv işləməsini xahiş etdik. Çünki, əfsuslar olsun ki, bu günə kimi onların Qarabağdakı ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir. Bu da yolverilməzdir. Çünki bütün dünya Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyır. Hətta Ermənistanın baş naziri dəfələrlə “Qarabağ Azərbaycandır” söyləyib. Bəs nəyə görə Qırmızı Xaç Komitəsinin Xankəndidəki ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir? Bu bizim legitim tələbimizdir.

**Müxbir:** – Laçın dəhlizi, sərhəd-keçid məntəqəsi və bu, çox mühüm keçid yolu məsələsinin indi sülhə əngəl olan əsas maneələrdən biri olduğunu deyərdinizmi?

**Prezident İlham Əliyev:** – Mən belə düşünmürəm. Çünki Laçın-Xankəndi yolundakı vəziyyət biz aprel ayının 23-də sərhədburaxılış məntəqəsi yaradanda yerində deyişdi. O vaxta kimi bizim sülh razılaşmasına gəlmək üçün iki il yarım vaxtımız var idi. Yeganə əngəl Ermənistanın rəsmi surətdə Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanımaq istəməməsi idi. Bəli, onlar bunu bəyanatlarla, şifahi bəyanatlarla edirdilər.

*Ardı 2-ci səhifədə*

Bu da mövqeyin ifadə edilməsinin bir yolu idi, lakin onlar sənədə imza atmalı idilər. Odur ki, mən bu iki məsələnin bir-biri ilə bağlı olduğunu düşünmürəm. Çünki Ermənistanla aparılan sülh danışıqlarının uğurlu bir ssenari ilə yekunlaşacağına ümid edirəm və bunun yaxın aylarda baş verəcəyinə ümidvaram.

**Müxbir:** – Düşünürəm ki, indi Sizə ünvanlayacağım suala artıq cavab vermisiniz. Amma mən istənilən halda Sizin burada olduğunuza və Sizə sual vermək üçün çoxlu imkanımın olmayacağına görə yenə bu sualı Sizə vermək istəyirəm. 2020-ci ildə hər iki tərəfdən, təxminən, 5 min insan tələfatı oldu. Mən burada idim, mən Dağlıq Qarabağa gəlmişdim və həlak olmuş bir çox erməni əsgərlərinin anaları ilə görüşdüm. Həmçinin Azərbaycanda işləyən həmkarlarım sayəsində digər tərəfin, Sizin tərəfin ağrısı və acısının da şahidi oldum. Lakin mən müharibəyə və oğlunun ölümünə görə siyasətçiləri günahlandırdığını deyən bir ana ilə danışdığımı xatırlayıram. O, siyasətçilərin müharibə tələsinə düşmədən məsələləri diplomatik yolla həll etməli olduqlarını deyirdi. Siz missiyanızın nədən ibarət olduğunu deyərdiniz? Missiyanız müharibədə qalib gəlmək, yoxsa dayanıqlı sülhə nail olmaqdır?

**Prezident İlham Əliyev:** – Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi. Müharibə də uğurla başa çatdı. Biz bir çox amillərə baxmadan müharibədə qalib gəldik: siyasi amillərə, bizim hərbçilərimiz üçün bir neçə müdafiə səddinin qırılmasını çətinləşdirən işğal edilmiş ərazilərdə uzunmüddətli infrastruktur layihələrinin olması amillərinə baxmadan. Bəzi yerlərdə onların minalarla dolu beş, digər yerlərdə isə yeddi müdafiə səddi var idi. Yəqin ki, Füzulidən gələndə yolun yuxarıya doğru getdiyini görmüsünüz. Bizim hərbçilərimiz məhz bu yolla buraya gəliblər. Sizin gəldiyiniz, sonradan "Zəfər yolu" adlandırdığım bu yol mövcud deyildi. Bu bizim hərbçilərimizin Şuşaya doğru necə irəliləməsini göstərən yol idi. Onlar bu qayalı dağlara dırmaşırdılar. Beləliklə, bu amillərə, böyük erməni diasporuna malik bir çox ölkələrin güclü siyasi dəstəyinə baxmayaraq, biz düzgün olanı etdik. Biz ədaləti və ərazi bütövlüyümüzü bərpa etdik. Biz öz torpağımızda vuruşduq. Biz Ermənistanın torpağında savaşmadıq və biz Zəfər çaldıq. Beləliklə, bu, artıq tamamlanmış bir nömrəli missiya idi. İndi isə biz sülh haqqında danışırıq.

Otuzillik işğaldan əziyyət çəkmiş ölkəmizin işğal altında olan əraziləri tamamilə məhv edilmişdir. Şuşada qeyri-qanuni məskunlaşmalar olduğu üçün şəhər tamamilə dağıdılmamışdır. Onlar Orta Şərqdən olan erməniləri burada məskunlaşdırmaq istəyirdilər və burada bir neçə min erməni yaşayırdı. Məhz buna görə heç də bütün şəhərlər dağıdılmamışdır. Lakin Füzuli tamamilə yerləyeksan edilmişdir, Ağdamda da vəziyyət eynidir. Demək olar ki, bir milyon azərbaycanlı evindən məhrum olmuşdur. Bütün bu acıya baxmayaraq, biz qisas almadıq. Mən dedim ki, biz qisası döyüş meydanında alacağıq, lakin Ermənistan müharibənin ilk günündən mənim tələb etdiyim bütün ərazilərdən geri çəkiləcəyi tarixləri bizə təqdim edən kimi biz dayandıq və sonra da sülh haqqında danışıqlara başladıq. İndi sülh bizim gündəliyimizdədir. Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq. Çünki bizim Ermənistana qarşı hər hansı bir ərazi iddialarımız yoxdur. Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik. Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidə yaşayan insanlar Azərbaycanda yaşayırlar və onlar onsuz da Azərbaycanın çox zəngin olduğu digər milli azlıqları kimi Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına və ya Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər. Bu onların seçimidir. Bu bizim onları buranı tərk etməsini istədiyimizə və ya Ermənistanın bizi etnik təmizləmə siyasəti aparmaqda günahlandırdığına görə etmirik. Biz onlara seçim hüququ veririk. Çünki onlar heç bir hüquqi icazə olmadan ya Ermənistan vətəndaşları olaraq, ya da heç kim tərəfindən tanınmayan dırnaqarası "Dağlıq Qarabağ respublikası"nın vətəndaşları olaraq bizim ərazidə necə yaşaya bilərlər? Hesab edirəm ki, bu, legitim yanaşmadır. Bu yanaşma beynəlxalq təcrübəyə uyğundur. Bu yanaşma separatizmə qarşı mübarizə aparan bir çox Avropa ölkələrində gördüyümüz təcrübəyə uyğundur. İndi biz separatizmə qarşı mübarizə aparmaqda Ukraynaya kömək etmək üçün Avropa və Qərbin necə birləşdiyini görürük. Bəs bizə gəldikdə nəyə görə bizim separatizmə qarşı mübarizəmizə fərqli yanaşma sərgilənir? Nəyə görə Gürcüstanın separatçı regionlarına qarşı yanaşması Qərb cəmiyyəti və siyasətçiləri tərəfindən tamamilə anlaşılır, lakin bizim eyni mənşədən olan separatizmə son qoymaq üçün legitim istəyimiz sual altına alınır? Nə üçün İspaniya Kataloniyaya referendum keçirməyə icazə vermir, baxmayaraq ki, onların sayı 5, yaxud 6 milyon nəfərdir və yaxınlıqda öz dövləti olan ermənilərdən fərqli olaraq, onların öz dövləti yoxdur. Nə üçün biz separatizmə dözməliyik? Biz bunu etməyəcəyik.

**Müxbir:** – Siz artıq əhaliyə və dövlətlərə mesajlar, o cümlədən təminatlar vermisiniz ki, istəsələr onlara qalmağa icazə veriləcək, onlar qorunacaqlar və burada yaşamağa icazə veriləcək. Bu gün ola bilsin ki, bizi izləyən ermənilərə mesajınız varmı? Şərt deyil bu, hökumət olsun, mən bilirəm, Siz baş nazir Paşinyanla təmasdasınız və ona mesaj göndərmək üçün bizim kameralarımıza ehtiyacınız yoxdur. Bəs ola bilsin ki, bizi izləyən başqa ermənilərə gəlincə necə? Bu gün qarşı tərəfə mesajınız nədən ibarətdir?

**Prezident İlham Əliyev:** – Mən bu barədə düşünməmişəm, çünki həyatımda ilk dəfədir ki, mənə bu sual verilir.

**Müxbir:** – Həqiqətənmi?

**Prezident İlham Əliyev:** – Bəli. Düşünürəm ki, mən sualı iki hissəyə bölərdim. Birincisi, əgər onlar mənim söylədiklərimə qulaq asırlarsa, mənim Ermənistandakı ermənilərə mesajım belədir ki, biz onların dövləti ilə sülh istəyirik, bizim Ermənistana qarşı ərazi iddialarımız yoxdur, baxmayaraq ki, müharibədən əvvəl yüz minlərlə azərbaycanlı Ermənistanda yaşayıb və bütövlükdə etnik təmizləməyə məruz qalıb, onların mədəni və dini irsi tamamilə məhv edilib. Bununla belə bizim heç bir ərazi iddiamız yoxdur. Lakin biz düşünürük ki, Azərbaycan və Ermənistan əlaqələrini normallaşdıranda və diplomatik əlaqələr quranda, Ermənistandan zorla deportasiya olunmuş azərbaycanlıların qayıtmaq hüququ var. Onlara digər bir mesaj ondan ibarətdir ki, hazırkı geosiyasi vəziyyəti və qüvvələr balansını aydın dərk etmək lazımdır. Uzun illər ərzində Ermənistan liderləri öz xalqını inandırırdılar ki, onlar dünyanın ən güclü ordusuna sahibdirlər, əgər müharibə başlasa, onlar Bakıya gələcəklər, Azərbaycan öz torpaqları uğrunda döyüşməyəcək, azərbaycanlılar artıq işğalla barışıblar. Bütün bu hekayələr tamamilə yanlış idi və təbliğatdan başqa bir şey deyildi. Beləliklə, müharibə bu hekayələri məhv etdi və bu təkcə bununla bitmədi. O, həmçinin Ermənistan dövlətinin çox sayda ideoloji sütunlarını dağıtdı. Onlar dərk etdilər ki, müharibəni uduzublar və çox güman ki, bu onlar üçün psixoloji cəhətdən çox ağrılı oldu. İndi biz sülh istədiyimizi deyəndə, bu ona görə deyil ki, biz zəifik və sülh axtarırıq. Xeyr, onlar bilirlər ki, biz xeyli güclüyük. Bu ona görədir ki, biz tarixin bu qara səhifəsinin bağlanmasını istəyirik. Biz nə bu gün, nə də gələcəkdə başqa bir müharibə istəmirik.

Beləliklə, erməni icmasına gəlincə, düşünürəm ki, onlar beynəlxalq ictimaiyyətin sülh təşəbbüslərinə qarşı çıxmamalıdırlar. Başa düşməlidirlər ki, əgər onlar Azərbaycanla sülh sazişi imzalamaq istəmirlərsə, gələcəkdə vəziyyət proqnozlaşdırılmayan olacaq. Gördüyümüz kimi, dünyada və regionda geosiyasi vəziyyət çox kəskin şəkildə dəyişir. Onların təhlükəsizliyi ilə bağlı ümidlərinin bir qismi tamamilə yoxa çıxdı. İndi onlar yeni təhlükəsizlik qarantları axtarırlar. Kim bu ərazidə döyüş meydanında Azərbaycanla qarşıdurmaya hazırdır, xüsusilə bizim müharibə zamanı nümayiş etdirdiklərimizdən və müharibədən sonra müdafiə imkanlarımızı artırdığımız bir vaxtda? Ermənilərə görə bizə qarşı döyüşməyə hazır olan kimsə varmı? Mən buna şübhə edirəm.

Mənim konkret olaraq bu vəziyyətdə Ermənistan hökumətinə artıq çatdırdığım başqa bir mesaj ondan ibarətdir ki, onlar üçün seçim ən yaxşı və qat-qat yaxşı arasında deyil. Onlar üçün seçim çox pis və qəbulolunan arasındadır ki, qəbulolunan seçim sağlam düşüncəyə, beynəlxalq hüquqa və azərbaycanlıların 30 il ərzində məhrum edildikləri öz torpaqlarında yaşamaq hüququnun tanınmasına əsaslanır. Qarabağdakı ermənilərə xatırlatmaq istərdim ki, biz onlarla təmaslara dərhal başladıq. Faktiki olaraq biz erməni əhalinin yaşadığı bir neçə kənddən keçən yeni Laçın yolunu tikməyə başlayanda xalqlar arasında təmaslar oldu. Mənə məlumat verildi ki, yolun inşası ilə məşğul olan işçilərlə erməni icması arasında təmaslar qurulub və onlar demək olar dərhal dostlaşıblar. Əgər tikintinin birinci ayında rusiyalı sülhməramlılar hər iki tərəfin təhlükəsizliyini təmin edirdilərsə, sonradan onlar, sadəcə olaraq, çıxıb getdilər. Rusiya sülhməramlıları yox idi, onlar asanlıqla ünsiyyət qururdular. Beləliklə, bu onu göstərir ki, sadə insanların əksəriyyətinin ürəyində bu nifrət yoxdur.

Qarabağdakı ermənilərə gəlincə, onlar qondarma liderlərinin arxasınca getməməlidirlər. Bu "liderlər", – hazırkı və bundan əvvəlki "liderlər", – onlara bütün bu müddət ərzində – müharibədən əvvəl, müharibə zamanı qalib gəldiklərini deyəndə yalan danışıblar. Hətta biz Şuşaya nəzarəti ələ alanda onlar deyirdilər ki, Şuşa onların nəzarəti altındadır. Onlar bunu çox yaxşı bilirlər. Onlar Xankəndidə hakimiyyəti ələ keçirmiş və əsas məqsədi öz maraqlarını güdmək olan bugünkü rejimin girovuna çevrilməməlidirlər.

Burada, Şuşada işğal dövründə tikilmiş üç villa var. Maraqlanırsınızsa, sizə onları göstərə bilərlər. Bu villalar Qarabağ ermənilərinin liderləri üçün tikilmişdi. Onlar bunu özləri üçün tikmişdilər. Şəhər tamamilə xarabalıqlar içərisində idi. Sizin indi gördükləriniz, o cümlədən bu "Qarabağ" hoteli, icra hakimiyyətinin binası, mehmanxanalar və hər şey bizim yenidənqurma prosesinin başlanğıcıdır. Onlar şəhərin ən yaxşı yerində özləri üçün 3 villa tikiblər. O insanlar ki bu gün həmin qondarma, tanınmamış respublikaya rəhbərlik edirlər. Qarabağ erməniləri başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən çox, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq onlar normal həyat yaşayacaqlar. Onlar manipulyasiyanın girovu olmağa son qoyacaqlar. Həmçinin onlar başa düşməlidirlər ki, bizi saymamağa davam etsələr, bizim mövcud olmadığımız kimi davranmağa davam etsələr və ya "prezidenti", "nazirləri", "parlamentariləri" olan qondarma ölkədə yaşayırlarmış kimi davransalar, bu gün olduqları vəziyyət onların xeyrinə dəyişməyəcək. Bütün bunlar yalandır. Biz onlara normal həyat təklif edirik. Düşünürəm ki, onlar mənə qulaq assalar başa düşəcəklər və bilirlər ki, mən sözümə əməl edirəm.

**Müxbir:** – Prezident İlham Əliyev, "Euronews"a müsahibə verdiyiniz üçün təşəkkür edirik.

**Prezident İlham Əliyev:** – Təşəkkür edirəm.

***

Müsahibədən sonra Prezident İlham Əliyev "Euronews"un müxbirinə işğal dövründə Şuşada ermənilər tərəfindən güllələnmiş Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin heykəlləri barədə məlumat verdi.

**AZƏRTAC**

## Səlahiyyətli nümayəndə Cəhri qəsəbəsində sakinlərlə görüşüb







Avqustun 2-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Babək rayonunun Cəhri qəsəbəsində olub, sakinlərlə görüşüb.

Görüşdə səlahiyyətli nümayəndə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" barədə məlumat verib, həyata keçiriləcək sosial-iqtisadi layihələri, o cümlədən kənd təsərrüfatının inkişafı istiqamətində görüləcək işləri diqqətə çatdırıb.

Görüş zamanı 47 sakinin hər birinin ayrı-ayrılıqda müraciət və problemləri dinlənilib. Bütün müraciətlər protokollaşdırılaraq onların həlli istiqamətində müvafiq tədbirlər görüləcək.

Qeyd edilib ki, hazırda qəsəbədə yollar yenidən qurulur, içməli su mənbələrindən yeni xətlər çəkilir, abadlaşdırma işləri görülür. Sakinlərin üzləşdiyi digər problemlər də aidiyyəti dövlət qurumları ilə birlikdə araşdırılıb qanunvericilik çərçivəsində həll olunacaq.

Qeyd edək ki, Cəhri qəsəbəsini Gülşənabad, Payız, Aşağı Buzqov, Yuxarı Buzqov və Gərməçataq kəndləri ilə birləşdirən qəsəbənin əsas avtomobil yolunda yenidənqurma işləri davam etdirilir, yeni asfalt örtüyü verilir. 2 zolaqdan ibarət olan əsas yolla yanaşı, ətraf məhəllələr də abadlaşdırılır, yollar asfaltlanır. Görüş zamanı sakinlər görülən işlərə görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə ediblər.

**"Şərq qapısı"**



## Ağbulaq İstirahət Mərkəzində təmir-bərpa işləri davam etdirilir

Şahbuz rayonu, Ağbulaq kəndində yerləşən Ağbulaq İstirahət Mərkəzi və Ağbulaq Xizək Mərkəzində təmir-bərpa işləri davam etdirilir. Artıq 2 aya yaxındır ki, Həmkarlar İttifaqları Şurası tərəfindən mərkəzdə yenidənqurma və əsaslı təmir-bərpa işləri aparılır. Dünən Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev mərkəzdə aparılan təmir-bərpa işləri ilə yaxından tanış olub. Mərkəzin əsas infrastrukturu olan Kanat xəttinin təkmilləşdirilməsi üçün xaricdən mütəxəssislər dəvət edilib. Kanat yolunun uzunluğu 980 metr, başlanğıc və son dayanacaq yeri arasındakı hündürlük fərqi isə 267 metrdir. Kanat yolunda hər biri 4 yerlik olmaqla, 59 oturacaq var.

Qeyd edək ki, 24 iyun 2023-cü il tarixdən etibarən Ağbulaq İstirahət Mərkəzi və Ağbulaq Xizək Mərkəzi Həmkarlar İttifaqları Şurası tərəfindən satın alınıb. Həmin tarixdən etibarən mərkəzdə yaşıllaşdırma və əsaslı bərpa işləri aparılır.

✍ Ceyhun MƏMMƏDOV



*Jurnalistin qeydləri*

# Təbrizi Təbrizə qol-qanad deyim...

*Baxdıqca hüsnünə doymayır gözüm, Təbrizim*

Ata-babalarımızdan belə bir deyim var: "...qonşun pisdir köç qurtar". Lakin xalqımızın tarixi taleyinə yazılmış bir çox hadisələr göstərdi ki, reallıqlar heç də bu məsəldə deyildiyi qədər sadə və asan deyil. Çünki min illərboyu bu torpaqlarda kök salmış, milli-mənəvi dəyərləri, tarixi soykökü ilə varlığını ortaya qoymuş Azərbaycan böyük zərbələri də elə məhz bədnam qonşularından alıb. Bu zərbələri ya açıq müharibə ilə yaşayıb, ya da gizli şəkildə. Necə deyərlər, saman altından su yeridib, kiminsə, hansısa siyasi gücün, dövlətin vasitəsi olmuş dövlətlər tərəfindən alıb. Ancaq Vətən müqəddəs olduğu üçün insanın qəlbindən nəinki köçmək, heç bir ovuc torpağını düşmənə vermək keçməz...

Azərbaycanın qədim şəhərlərindən biri olan Təbriz dəniz səviyyəsindən 1350 metr yüksəklikdə, Səhənd dağının şimal təpələrinin və qırmızı rəngli Surxab dağının ətəyində yerləşir. Tarixi qaynaqlar da sübuta yetirmişdir ki, bu şəhər Gülüstan və Türkmənçay müqavilələri imzalandığı tarixə qədər yalnız qədim Azərbaycan dövlətlərinin – Sacilər, Salarilər, Eldənizlər, Səlcuqlar, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və Qacarlar kimi qüdrətli dövlətlərin tabeliyində olmuşdur. Milli soykökü türkçülüyə, Azərbaycançılıq ideologiyasına söykənən bu dövlətlərin əksəriyyəti Dərbənddən İran körfəzinə qədər olan geniş bir ərazini birləşdirərək Azərbaycanı vahid dövlətə çevirmiş və Təbriz kimi qüdrətli şəhəri də paytaxt etmişlər. Lakin XIX əsrdən etibarən Qafqaz cəbhəsində, habelə Osmanlı-Rusiya, Rusiya-Qacar dövlətləri arasında gedən müharibələr, sözsüz ki, Vətənimizin azadlığına, müstəqilliyinə ciddi zərbələr vurmuş, məğlub olan tərəflərin imzaladığı ağır şərtli müqavilələr isə başda Təbriz olmaqla, bir çox Azərbaycan şəhərini bu gün də olduğu kimi, yad elların, üzdə dost, əqidədə düşmən olanların əlinə vermişdir...

Ötən əsrin keşməkeşli, qanlı-qadalı illərində bir daha gördük ki, uzun illər süfrəmizin başında əyləşib çörəyimizi yeyən, suyumuzdan içib özünə gün-güzəran quran işğalçı Ermənistan torpaqlarımızın ərazi bütövlüyünə, xalqımızın sülh və əmin-amanlığına necə əl uzatdı. Təkrardan həmin hadisələri mövzumuzda şərh etməyə lüzum yoxdur, lakin onu da bilmək lazımdır ki, bu illər ərzində daim Qafqaz cəbhəsində sülhü qoruyan dövlətimiz bir an belə olsun haqq yolundan və qətiyyətindən dönmədi. Xalqımızın apardığı haqq-ədalət mübarizəsi yalnız tarixi ədalətin bərpası yox, həm də reallıqları gün üzünə çıxarmaq, əyriylə doğrunu ayırıb Ermənistan hökumətinin və onun havadarlarının, əlalxüsus da cənub qonşularımızın həqiqi simalarını üzə çıxarmaq baxımından sanki Uca Yaradanın bizə göndərdiyi bir fürsət idi. Və rəşadətli Azərbaycan Ordusu öz gücü, qüdəti ilə düşmənə və onun həmfikirlərinə layiqli cavabı verdi, necə deyərlər, bu fürsəti layiqincə dəyərləndirdi. Həm də onların istədiyi kimi döyüş meydanında...

Müharibədən ötən bu illər göstərdi ki, Azərbaycanın Qafqazda qüdrətli dövlətə çevrilməsi yalnız Ermənistanın yox, həm də onunla yüz illərdir, sülh şəraitində yaşayan İrandakı molla rejiminin də maraqlarına ziddir. Mövzumuza siyasi kontekstdən yox, ümumi məsələlərdən yanaşsaq, əgər, ərazisinin böyük bir hissəsi, hətta paytaxtı belə tarixi Azərbaycan torpağı olan bu dövlətin Ermənistanla ən böyük ortaq cəhəti "Azərbaycan maraqlarıdır". Çünki ərazi bütövlüyünü bərpa etmiş və gələcək inkişaf konsepsiyasını daha aydın və qətiyyətli şəkildə ortaya qoyan, Avropanın bir çox vacib sahələr üzrə mühüm tərəfdaşı olan Azərbaycan regionda onlar üçün ciddi narahatlıq doğurur.

Dönüb şanlı Qarabağ Zəfərinə qədər olan tarixə baxsaq, görərik ki, Vətənimiz hər bir sahədə olduğu kimi, İran İslam Respublikası ilə də daim dostluq münasibətləri qurmağa çalışıb, onunla bu və ya digər siyasi mövzularda tərəfdaşlıq edib. Dövlətimiz tərəfindən bu prinsip bu gün də qorunur. Amma reallıq göstərir ki, Ali Baş Komandan dəfələrlə beynəlxalq tribunalardan etdiyi çıxışlarında dünyanın bütün siyasi güclərini, eləcə də cənub qonşularımızı Azərbaycanla dostluq və tərəfdaşlığa çağırsa da, bu münasibətlərin qurulmasının əhəmiyyətini dəfələrlə vurğulasa da, Ermənistan ordusunun Xocalıda törətdiyi soyqırımı yalnız Azərbaycanın yox, bəşəriyyətin humanizm prinsiplərinə zidd olduğunu dilə gətirsə də, başda cənub qonşular olmaqla onların bir çox havadarları məsələni özlərinə sərf edəcək məcraya çəkiblər. Sadaladıqlarımızın əyani sübutunu 44 günlük Vətən müharibəsində də bütün reallıqları ilə gördük. Bununla belə Cənubi Azərbaycana səyahət edənlərimiz çox yaxşı bilir, burada soydaşlarımıza göstərilən "doğma" münasibəti. Düşünürəm ki, qəlbi Vətənlə vurub, xalqla döyünən elə bir azərbaycanlı tapılmaz ki, Təbriz şəhərində, Ərdəbildə və digər tarixi ərazilərimizdə başsız qalan, xarabazara çevrilən Azərbaycan qəbiristanlıqlarını görüb göz yaşlarına qərq olmasın. Tarixi saxtalaşdırmaq, ya da onun üzərinə kölgə salmaq üçün edilən intriqalar, dağıdılan memarlıq abidələri, şeirləri, əvəssiz yaradıcılığı zor-bəla ilə mənimsədilən Şəhriyarın bədii irsi və saymaqla bitməyəcək acizlik və cılızlıq göstərir həqiqətin nə yerdə olduğunu...



*Neçə milyon gözüyaşlı əzizimi,*
*O həsrətli Təbrizimi oğurlamaq istəyirəm!*

İrandakı molla rejiminin dövlətimizə qarşı göstərdiyi təzyiqlər təbii ki, son bir-iki ildə baş verəcək məsələ deyil. Hələ Qarabağımız erməni vandalizminin əsarətində olduğu illərdə də rejim tərəfindən dəfələrlə Ermənistana dayaq göstərilmiş, əsrin faciəsi olan Qarabağın işğalına, soydaşlarımıza qarşı törədilən bir sıra terror aktlarına göz yumulmuşdur. Tarixboyu heç bir dövləti özünə əbədi düşmən bilməyən Azərbaycanı müharibəyə sövq etmək, dövlətimizin qüdrətə yüksəlməsinin yeganə yolunun qan tökməkdən keçəcəyinə "inandırmaq" da bu quzu cildinə girmiş qurdların bitib-tükənməyən təxribatlarının bir hissəsi idi. Bu gün hər kəs yaxşı bilir ki, Vətənimiz daim beynəlxalq humanizm prinsiplərinə əməl edərək ölkələrlə müəyyən olunan qaydalar əsasında münasibət qurmuşdur. Qəbul olunmuş siyasi düşüncələrə görə, siyasətdə əbədi dostlar və ya əbədi düşmənlər yoxdur, əbədi maraqlar var. Azərbaycan və İran arasında əbədi maraqları şərtləndirən bir çox amillər – din, dil, mədəniyyət və qonşuluq şərtləri var ki, bunlara hörmət və əməl edilməlidir. Lakin, xüsusilə də son dövrlərin hadisələrinə diqqət etsək, molla rejiminin əlində nəinki tarixi ədalət, dini və bəşəri maraqlar, belə özünü doğrulda bilmir. Uzaq tarixə müraciət etməyə gərək yoxdur. Götürək 44 günlük Vətən müharibəsini. Bu dövrdə İrandakı "əmmaməlilər" düşünürdü ki, bu məsələ, yəni İkinci Qarabağ müharibəsi Aprel döyüşlərində, Tovuz əməliyyatlarında olduğu kimi, Azərbaycan Ordusunun cüzi qələbəsi ilə yekunlaşacaq. Buna görə də əks-hücum əməliyyatı başladığı andan, sadəcə, hadisələrə izləyici qismində yanaşdı. Lakin müharibənin gedişatı və Ali Baş Komandanın siyasi səriştəsi elə bir həddə çatdı ki, yalnız əziz-xələf qonşularımız yox, dünyanın nəzəri Qafqaz cəbhəsinə, rəşadətli ordumuzun bir zamanlar dağlarda toy edənlərə əsl toy tutduğu o hadisəyə dikildi. Nəticədə, mübariz xalqımızın arzuları, ümidləri bir ox kimi düşmənin qəlbini parça-parça etdi, Şuşadan azan sədaları yüksəldi, mübariz ordumuz isə yal eşqiylə yurdumuza gələnləri, elə ölkə başçımızın da dediyi kimi ***"İti qovan kimi qovdu..."***

*Dini dəyərlərimizə "doğma münasibət"*
*və ya zülmətin əlli çaları*

Doğma yurdumuz – Qarabağımız işğal altında olduğu illərdə milli-mənəvi dəyərlərimizə, məscidlərimizə, incəsənət xadimlərimizin heykəllərinə qarşı törədilən faşizmi, heç kəs inkar edə bilməz cənub qonşularımız. Lakin acı təəssüf hissi ilə qeyd etməliyik ki, dünya mediasının da paylaşdığı kimi, bu ilin yanvar ayında Ermənistanın baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyanın İrana səfəri zamanı rəsmlərin müşayiəti ilə şiələr üçün müqəddəs sayılan dini mərkəzi Qum şəhərinə gəlib buradakı məscidi və Həzrəti Fatimə Məsumənin məqbərəsini ziyarət etməsinə şərait yaradılıb. Özü də Uca Yaradanın müsəlmanlara vacib buyurduğu hicabla...Yaxşı, əgər molla rejimi uzun müddət əli südəmər körpələrin, dinc sakinlərin qanına bulaşmış düşmənə qara çarşab geyindirəcək qədər dini dəyərlər belə sevilirsə, onlar bu qədər qorunur, qeydinə qalınırsa, bəs onda nə üçün 30 il donuzların oylağına çevrilmiş Gövhərağa məscidlərinə, Şuşanın, Ağdamın dini-mədəni abidə komplekslərinə göstərilən yad münasibətlərə biganə qalmağa nə ad verək? Nə üçün mənfur ermənilərin xalqımızın irsinə hopmuş, müsəlman-türk əqidəsindən bizə miras qalmış dəyərlərimizin çapılıb-talanmasına göz yumdu? Bu sualların cavabını biz də, bütün Azərbaycan xalqı da, elə dünya ictimaiyyəti də çox yaxşı bilir...

*Əmmaməli mollaların Zəngəzur dəhlizi isteriyası...*

Böyük Qələbədən ötən bu zaman müddətində ölkəmizdə, eləcə də dünya gündəmində əsas yer tutan məsələlərdən biri də Zəngəzur dəhlizinin açılmasıdır. Təbii ki, bu dəhlizin açılması məsələsi reallaşmağa başladığı gündən istər Ermənistan hökumətinin, istərsə də onun havadarlarının, əlalxüsus da cənub qonşularımızın təzyiqi ilə nəticələnib. Bir sözlə, İran əmmaməliləri və Ermənistan bu dəhlizin açılmasını özlərinə ölüm-qalım məsələsi seçiblər. Əslində, molla rejimi Zəngəzur dəhlizinin açılmasını və inkişafını dörd əsas səbəbə görə istəmir. Birincisi, Azərbaycan ərazisi ilə Naxçıvan Muxtar Respublikası arasında əsas əlaqə olmaq imkanı, ikincisi, İran Türkiyə ilə Mərkəzi Asiya arasında birləşdirici rol, üçüncüsü, Avrasiya İqtisadi Birliyi (AİB) ilə birləşmə nöqtəsi itiriləcək. Və nəhayət, dördüncüsü, Rusiya-Ukrayna müharibəsindən sonra, Orta Dəhlizin strateji dəyəri artdıqca, Zəngəzur dəhlizi Şərq və Qərb arasında nəqliyyatda ən əhəmiyyətli rola sahibləncək.



Bununla yanaşı, məlumdur ki, Qarabağ müharibəsindən əvvəl Azərbaycanla Naxçıvan arasında yol İrandan keçirdi. Zəngəzur dəhlizi bu vəziyyəti dəyişə bilər, çünki marşrut Ermənistan ərazisindən keçəcək. Belə olan halda Naxçıvanla daşımaların qurulmasında Bakının Tehrandan asılılığı azalacaq. Zəngəzur dəhlizi həm də Azərbaycan və Türkiyə arasında əlaqə olacaq. Təqaüddə olan İran diplomatı Əbülfəzl Zöhrəvəndin dediyi kimi: "Türkiyə ilə Azərbaycan arasında birbaşa yol yeraltı tunel olsa belə bizə problem yaradacaq. Çünki bu, İranın Türkiyəyə qarşı istifadə edə biləcəyi yeganə tranzit marşrutdur". Yəni ümumi nəticə belədir ki, İran hökuməti nə qədər çalışsa da, süni manevrlər yaratmaq istəsə də, reallıq heç zaman dəyişməyəcək. Zəngəzur dəhlizinin açılması bir reallıqdır və açılması mütləqdir!

*Təbriz buna inanmaz! İnansa, Təbriz deyil!*

İranın molla rejimi Azərbaycan xalqına qarşı sərgilədiyi açıq düşmənçilik mövqeyi bütün reallıqları ilə göz qarşısındadır. Çox uzağa getməyə ehtiyac yoxdur, elə il ərzində baş verən hadisələrə nəzər salmaq düşünürəm ki, mövzumuzun məğzini açmağa kifayət edəcək. Bu ilin əvvəli – yanvarın 27-də səhər saatlarında Azərbaycanın İrandakı səfirliyində terror aktı törədildi. İçəri daxil olan terroristin atəş açması nəticəsində səfirliyin mühafizə xidmətinin rəisi, baş leytenant Orxan Əsgərov şəhid oldu. Təhlükəsizlik kameralarından əldə edilən görüntülər onu deməyə əsas verir ki, İran polisi terroristə nəinki müdaxilə etmir, hətta ona tapşırılmış işi icra edirmiş kimi hadisə yerindən uzaqlaşır. Bu faktlar isə bu terrorun əvvəlcədən planlaşdırıldığına dair kifayət qədər sübut verir. Hadisə zamanı əsl qəhrəmanlıq nümayiş etdirən səfirliyin digər əməkdaşı Vasif Tağıyev oradakıların həyatlarını xilas edir. Bu hadisədən sonra Tehrandakı diplomatik nümayəndəliyin bütün əməkdaşları və onların ailə üzvləri Vətənə təxliyə olundu... Beləcə, ölkələrarası diplomatik münasibətlərdə qeyri-müəyyən vaxtadək "fasilə" yarandı. Onsuz da mürəkkəbləşən siyasi əlaqələr daha da gərginləşdi. Hadisənin üzərindən bir ilə yaxın keçməsinə baxmayaraq, qarşı tərəf hələ də qatilin tapılmadığını iddia edir. Hətta ötən günlərdə – iyulun 5-də İran İslam Respublikasının xarici işlər naziri ilə ölkə başçımızın görüşündə də bu məsələ gündəmə gəldi. Qonşu ölkənin nümayəndəsi yenə də qatilin tapılmadığını, bütün faktların göz qarşısında olmasına baxmayaraq, onun yoxa çıxdığını və ən qısa zamanda tapılacağı vədini verdi. Təbii ki, bu, yüz illərdir, özünü doğrultmayan vədlərdən biri idi. Ən ağır məqam isə, bizi, neçə milyon əzizimizi, o həsrətli Təbrizimizi bu aciz yalana inandırmaq istəməsi idi...

Müstəqilliyimizi bərpa etdiyimiz tarixdən etibarən xalqımız, dövlətimiz bir yumruq kimi birləşib Vətənimizi ən yüksək məqamlara çatdırmağa müvəffəq oldu. Bir zamanlar ərazi bütövlüyü kobudcasına pozulan, nizami ordusu, texnikası, silah-sursatı olmayan dövlətimiz bu gün hər yerdə, hər məkanda dünyaya meydan oxuyur, öz gücünü necə lazımdırsa nümayiş etdirir. Ən əsası isə 30 illik əsarətdə olan torpaqlarımızda üçrəngli Azərbaycan Bayrağı dalğalanır. Elə bu məqamda xatırlayıram Ali Baş Komandanımızın söylədiyi o tarixi fikri: ***"Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik"***. Biz bu ideyanın arxasında dayanmaqla bərpa etdik tarixi ədaləti, buna inanmaqla qovduq düşməni. Bu haqq savaşımızda isə o taylı, bu taylı, dili bir, əqidəsi bir, amalı bir olan soydaşlarımız ən gözəl mənəvi birlik, həmrəylik nümayiş etdirdi. İnanırıq ki, bu da İranın molla rejiminin də Azərbaycan həqiqətlərini gec-tez qəbul etməyə sövq edəcək.

✍ Məcid RƏŞADƏTOĞLU

## Ötən il ölkə üzrə ən yüksək qəbul nəticəsi Naxçıvan, Şahbuz və Ordubad rayonlarında olub








Ölkəmizdə dövlətimiz tərəfindən təhsilə göstərilən diqqət və qayğı artıq öz nəticələrini verir. Naxçıvan Muxtar Respublikasında bu sahədə ildən-ilə uğurlu nəticələr əldə edilir. Məktəblilərimiz dövlətimiz tərəfindən onlar üçün yaradılan müasir tədris şəraitindən səmərəli istifadə edərək təhsildə yüksək nəticələr qazanırlar.

Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin 2022-2023-cü tədris ili üçün tələbə qəbulu və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının nəticələrinin elmi-statistik təhlili ilə bağlı çap etdiyi "Abituriyent" jurnalının 12-ci nömrəsində də muxtar respublikanın ümumtəhsil məktəblərinin yüksək nəticə göstərməsi ilə bağlı məlumatlar yerləşdirib. Jurnalda digər bölgələr kimi muxtar respublikanın ümumtəhsil məktəblərini bitirən məzunların da ötən tədris ilinin qəbul nəticələri geniş təhlil olunub. Belə ki, ölkə üzrə 2022-ci ildə məzunların ali təhsil müəssisələrinə qəbulolma göstəricilərində ilk onluqda muxtar respublikanın altı rayonunun təhsil şöbələri yer alıb.

| № | Təhsil Şöbəsi | Məzunların sayı | Abituriyentlər | | Qəbul olan abituriyentlər | | |
|---|---|---|---|---|---|---|---|
| | | | sayı | faizi (bölgənin məzunlarının sayına görə) | sayı | faizi (bölgənin abituriyentlərinin sayına görə) | faizi (bölgənin məzunlarının sayına görə) |
| 1 | Naxçıvan şəhəri | 793 | 767 | 96.72 | 495 | 64.54 | 62.42 |
| 2 | Şahbuz rayonu | 123 | 112 | 91.06 | 74 | 66.07 | 60.16 |
| 3 | Ordubad rayonu | 263 | 222 | 84.41 | 154 | 69.37 | 58.56 |
| 4 | Qubadlı rayonu | 649 | 607 | 93.53 | 375 | 61.78 | 57.78 |
| 5 | Culfa rayonu | 304 | 261 | 85.86 | 175 | 67.05 | 57.57 |
| 6 | Abşeron rayonu | 3263 | 2935 | 89.95 | 1770 | 60.31 | 54.24 |
| 7 | Sumqayıt şəhəri | 3532 | 3214 | 91.00 | 1869 | 58.15 | 52.92 |
| 8 | Bakı şəhəri | 23689 | 21378 | 90.24 | 12139 | 56.78 | 51.24 |
| 9 | Şərur rayonu | 553 | 494 | 89.33 | 274 | 55.47 | 49.55 |
| 10 | Babək rayonu | 524 | 465 | 88.74 | 251 | 53.98 | 47.90 |

Jurnalda məzunlarının ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri ölkə üzrə 75 rayonun ümumtəhsil məktəblərini əhatə edib. Məzunlarının ali təhsil müəssisələrinə qəbulolma göstəricilərinə görə sıralamada Naxçıvan şəhəri 1-ci, Şahbuz rayonu 2-ci, Ordubad rayonu 3-cü, Culfa rayonu 5-ci, Şərur rayonu 9-cu, Babək rayonu 10-cu sırada yer alıb. Məktəbi 2022-ci ildə bitirmiş abituriyentlərin ali təhsil müəssisələrinə qəbulolma göstəricilərinə görə həm respublika üzrə, həm də respublikanın bölgələri içərisində ən yüksək nəticə Ordubad rayonunun məzunlarına məxsusdur. Ordubad rayonunun imtahanda iştirak edən hər 100 məzunundan 69-70 nəfəri ali təhsil müəssisələrinə qəbul olmuşdur.

Ali təhsil müəssisələrinə qəbul olan məzunların onların ümumi sayına nisbətdə faizinə görə 2022-ci ildə də təqdim edilib. Bu göstərici üzrə cari ildə Naxçıvan şəhərinin, Şahbuz, Ordubad və Culfa rayonlarının ümumtəhsil müəssisələri respublikanın digər bölgələrini təmsil edən məktəblərlə müqayisədə çox böyük üstünlüyə malik olub. Məktəbi 2022-ci ildə bitirən hər 100 nəfər məzundan Naxçıvan şəhəri üzrə 62-63-ü, Şahbuz rayonu üzrə 60-61-i, Ordubad rayonu üzrə 58-59-u, Culfa rayonu üzrə 57-58-i ali təhsil müəssisələrinə qəbul olunub.

Qeyd edək ki, muxtar respublikada 2021-2022-ci tədris ili üzrə ümumtəhsil məktəblərini Heydər Əliyev adına Hərbi Lisey də daxil olmaqla, 2990 məzun bitirmiş, onlardan 2848-i, yaxud 95 faizi qəbul imtahanlarında iştirak etmiş, 2159-u yəni 76 faizi ali və orta ixtisas müəssisələrinə daxil olmuş, 6 məzun Prezident təqaüdünə layiq görülmüşdür.

Hazırda 2022-2023-cü tədris ili üzrə qəbul imtahanları yekunlaşıb. I və IV ixtisas qrupu üzrə qəbul imtahanının nəticəsi də bu yaxınlarda elan ediləcək. Məzunların ixtisas seçiminə start veriləcək. Ümidvarıq ki, bu il də məzunlarımız ötən il olduğu kimi, ali və orta ixtisas təhsili müəssisələrinə qəbulda uğurlu nəticə qazanacaq, muxtar respublikanın şəhər və rayon təhsil şöbələri qəbul nəticələrinə görə ölkə birinciliyini qoruyub saxlayacaqlar.

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti*

## 2 avqust – Azərbaycan Kinosu Günü qeyd edilib



Dünən Naxçıvan Dövlət Film Fondunda 2 avqust – Azərbaycan Kinosu Günü münasibətilə tədbir keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən Kərimov bildirmişdir ki, Ümummilli Lider Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli Sərəncamı ilə hər il avqustun 2-si ölkəmizdə kino işçilərinin peşə bayramı – "Azərbaycan Kinosu Günü" kimi qeyd olunur. 125 illik çətin, mürəkkəb və şərəfli bir yol keçən Azərbaycan kinosu xalqımızın tarixini, milli-mənəvi dəyərlərini qorumuş və yaşatmışdır.

Azərbaycan kino tarixində dönüş mərhələsi isə 1970-ci illərdən başlanır. İncəsənətimizin hamisi olan Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövrlərində milli kinonun inkişafı üçün mühüm tədbirlər həyata keçirilmişdir. Məhz dahi rəhbərin səyi nəticəsində 70-ci illərdən başlayaraq Bakıda ümumittifaq kinofestivallarının, televiziya filmləri festivallarının keçirilməsi ənənəsi qoyulmuşdur. Ümummilli Liderin himayədarlığı və təşəbbüsü ilə Azərbaycan tarixinə, mədəni abidələrinə, dahi şəxsiyyətlərin həyatlarına güzgü tutan "Nəsimi", "Nizami", "Babək", "Dədə Qorqud" kimi ekran əsərləri meydana gəlmiş, "İstintaq", "Bir cənub şəhərində" kimi onlarla ekran əsəri Onun dönməz iradəsi nəticəsində sovet senzurasından keçməklə izləyici qarşısına çıxa bilmişdir.

Bildirilib ki, ölkə başçısının "Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi haqqında" 2007-ci il 23 fevral tarixli Sərəncamı milli kinomuzun maddi-texniki bazasının möhkəmləndirilməsinə təkan vermiş, "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı" təsdiq olunmuş, 2018-ci ildə Azərbaycan kinosunun 120 illiyi ilə bağlı Sərəncam imzalanmış və dövlət səviyyəsində qeyd olunmuşdur.

125 yaşlı Azərbaycan kinosu həm də mədəniyyətimizə dəyərli aktyor, rejissor, rəssam, bəstəkar heyəti qazandırmışdır. Bu gün ehtiramla xatırladığımız o insanların içərisində Naxçıvan torpağının yetişdirdiyi incəsənət xadimləri də yer alır. Unudulmaz filmlərimizdən olan "Nəsimi", "Dədə Qorqud", "Babək", "Əzablı yollar", "Gümüş göl əfsanəsi", "Dəniz sahillər" və başqa ekran əsərlərinin müəyyən hissələri və natura çəkilişləri Naxçıvanda aparılmışdır. Bu gün Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Dövlət Film Fondu, kino muzeyi də məhz milli kino sənətimizin qorunması, yaşadılması və gələcək nəsillərə ötürülməsi məramına xidmət edir.

Sonra Tofiq Tağızadənin "Görüş" bədii filmi nümayiş etdirilmiş, Azərbaycan kinosu ilə bağlı stendlərə və kino muzeyinə baxış keçirilib.

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti*

## Naxçıvan Şəhər İcra Hakimiyyətində kadr dəyişikliyi olub

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Hüseynov Pəncalı Yaqub oğlu və Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini – Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Əhmədov Səfər Siyafər oğlu vəzifələrindən azad edilib.

Bununla bağlı Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Sərəncam imzalayıb. İcra hakimiyyəti başçısının digər Sərəncamı ilə Vəliyev Əhməd Zöhrab oğlu Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini – Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri vəzifəsinə təyin olunub.

## Qanunsuz kömür istehsal edilən həyətyanı sahə aşkarlanıb



Muxtar respublikada qanunsuz kömür istehsalının qarşısının alınması məqsədilə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən keçirilən nəzarət tədbirləri zamanı Şərur rayonu Yengicə kəndi ərazisində vətəndaşın həyətyanı sahəsində qanunsuz yolla ağac kömürü istehsal edildiyi müəyyən edilib. Faktla bağlı qanunamüvafiq tədbir görülüb.

**Xəbərlər şöbəsi**

## Laçın postunda qoyulan son diaqnoz *(replika)*

*İkiüzlü siyasətçilərin gözünə soxulub, dırnaqarası amalı "yaratmaq" olan, əsl fəldə isə yalan, fitnə və yaltaqlıq ustası olan hayların və onların ölkəmizin içərisinə sızmış uzantılarının keçmiş əməlləri üzə çıxdıqca dünya Qarabağ gerçəklikləri ilə daha yaxından tanış olur. Bu gerçəkliklər hələ 1988-ci ildən başlayaraq azərbaycanlılara qarşı ermənilərin törətdiyi hər cür vəhşilik, quldurluq, öldürülən insanlar, qəsb olunan əmlak, yurdundan sürgün edilən vətəndaşların yaşadığı acılarla dolu tarixin səhifələri idi. Belə qanlı əməllərə imza atıb, xəstəlik bəhanəsi ilə İrəvana qaçmaq istəyən, amma Uca ədalətin cəzasından qaça bilməyən erməni terrorçusu Vaqif Xaçaturyana bu günlərdə Azərbaycanın Laçın postunda qoyulan son diaqnoz isə onun və onun kimi digər erməni cəlladlarının tutulduğu xəstəliyin adını bir daha dünyaya faş edir: erməni terrorizmi!*

Qarabağın düşmən tapdağından azad olunması ilə nəticələnmiş 44 günlük müharibədən sonra hələ də özlərinə gələ bilməyən ermənilərin xaotik çırpıntıları davam etdikcə onlar indiyə qədər görünməmiş hiyləgər və hiyləgər olduğu qədər də komik və axmaq hərəkətləri ilə dünyaya gündəm olmağa çalışırlar. Keçmişdə törətdikləri bədnam əməllərə görə səksəkəyə düşüb gah gizli yollarla sərhədi keçməyə çalışan, gah humanitar yük adı altında silah daşıyan, gah da acından öldüklərini iddia edərək hay-küy qoparan ermənilər nə qədər tülkü donuna girsələr də, sonunda haqq-ədalət qarşısında cavab verməli olduqda onlara deyiləcək tək bir söz vardır: erməni ki, erməni!

1988-ci ildə Azərbaycana qarşı ərazi iddiaları ilə yenidən baş qaldıran ermənilərin 30 ildən sonra düşdüyü bu son vəziyyət öz bədnam əməllərinə görə heç kimin cəzadan qaça bilməyəcəyinin tam bir sübutudur. Hələ 1990-cı illərdə indiki kimi internet və foto-videofaktların geniş olmadığı dövrdə də azğınlaşmış bir erməni saqqallısının əməllərinin insanların göz və qulaq yaddaşında yaşayacağını, keçəl qılıfına girib qızının arxasında pərdələnməyə çalışsa da, Azərbaycanın işinin peşəkarı olan qəhrəman sərhədçilərinin gözündən yayına bilməyəcəyini biləndən sonra Xankəndidəki bütün separatist dəstənin tək bir çarəsi qalmışdır: oyunun sonunu gözləmək! Oyun isə artıq bitmişdir. Artıq nə Xaçaturyan kimi özünü xəstəliyə vurub, xaç maşınında gizlənməyin, nə də getməyinə az qalmış rus əsgərinə rüşvət verib özünə çıxış yolu axtarmağın heç bir faydası yoxdur. Əgər Xankəndidə keçmişi təmiz olan bircə nəfər erməni varsa, o da yaxşı bilir ki, Azərbaycan dövlətinin əlində nəinki onun, hətta xaricdəki ermənilərin də bu ötən 30 ildə baş vermiş hadisələrin, onların faillərinin və şahidlərinin dəqiq məlumatları vardır. Ona görə də özünü məsum göstərib cəzadan qaçmaq istəyən Xaçaturyan kimi bütün cinayətkarların son yeri həbsxana olacaqdır.



Azərbaycan bu gün qalib dövlət kimi məğlub Ermənistanla aparılan danışıqlarda şərt qoyan tərəfdir. Ölkə rəhbərimiz apardığı qətiyyətli siyasətlə bütün Cənubi Qafqaz regionunda davamlı sülhün və regional əməkdaşlığın gec-tez bərqərar olunması üçün hər cür konstruktiv danışıqlara hazır olduğunu dəfələrlə bəyan etmişdir. Ancaq xalqımıza qarşı cinayət törətmiş, silahsız mülki şəxslərə, qadınlara, uşaqlara qarşı soyqırımı törətmiş istənilən şəxsin cəzasının veriləcəyini açıq bəyan edən dövlət başçımız bununla bütün dünyada bir daha belə əməllərin törədilməməsi üçün hər kəsi həmrəy olmağa çağırır. Lakin bu gün hələ də erməni mətbuatında yaxalanmış terrorçu Vaqif Xaçaturyanın cinayətkar əməllərindən susqunluqla keçilməsi, tam əksinə, onu dəstəkləyən dırnaqarası mitinqlərin işıqlandırılması bu toplumun nə qədər bataqlıq içində olduğunu açıqca göstərir. Ancaq ermənilər bilməlidirlər ki, qızının harayhəşirinə baxmayaraq, öz günahlarını yaxşı bilən və səssizcə təslim olan Vaqif Xaçaturyan tipi bundan sonrakı günlərdə bütün hayastan üçün yeni bir "simvola" çevriləcək. Həmin gün həm də dinc sakinlərə qarşı amansızlığı ilə erməni qəhrəmanına çevrilmiş cinayətkarların sonunun gəldiyi gün kimi də tarixə düşəcək. Burada yazılacaq ki, necə oldu ki, 30 il əvvəl qadınları, uşaqları qəddarca qətlə yetirən 68 yaşlı terrorçu Laçın postunda yaxalandığında hətta qızının belə üzünə dik baxa bilmədən onunla son dəfə yollarını ayırdı! Bəli, bu tarix yazıldı. Həmin gün, əslində, bütün dünya erməniliyinin sonu idi!

**✍ Əli CABBAROV**

***Bildiriş***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 18 iyul 2023-cü il tarixli 190-VI FR nömrəli Fərmanı ilə "Naxçıvan mətbəxi" Kulinariya Mərkəzi ləğv edilmişdir.

***İtmişdir***

Şərur rayonunun Kürkənd kəndində yaşamış Həsənov Musa Ağoş oğlunun adına olan JN-17B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 452